

# “Əkinçi”nin maarifçi ruhu, “Molla Nəsrəddin”in cəsarətli sözü informasiya mühitində hər zaman öz əksini tapacaq

*Milli mətbuatımızın 150 illik yubileyi 1875-ci ildə Həsən bəy Zərdabi ilə başlanan maarifçilik yolunun, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli kimi neçə-neçə ziyalının davam etdirdiyi böyük bir irsin bayramıdır. Bu irs yalnız jurnalistikamızın deyil, bütövlükdə milli kimliyin, ictimai fikrin formalaşmasında mühüm rol oynamışdır.*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə media məkanında yeni mərhələ başladı. Latin qrafikalı əlifbaya keçid milli medianın türk dünyasına, ümumilikdə müasir dünyaya inteqrasiyasını gücləndirdi.

Bu gün də cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə medianın inkişafı istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Xüsusilə, 44 günlük Vətən müharibəsi dövründə biz bunun şahidi olduq. Bütün media mənsublarımız informasiya cəbhəsində səfərbər idi. Cənab Prezident şəxsən bu prosesə siyasi iradə ilə öncüllük edirdi. Hər kəs Azərbaycan həqiqətlərini, dezinformasiyaya qarşı real faktları beynəlxalq auditoriyaya çatdırmağa çalışırdı. Jurnalistlərimiz o çətin günlərdə erməni təcavüzünə məruz qalan - Gəncədə, Bərdədə, Tərtərdə haqqın və ədalətin müdafiəsi naminə cəbhədəki qəhrəman əsgərlərimiz kimi mübarizə aparırdılar. Bu gün də medianın üzərinə böyük məsuliyyət düşür. Cəmiyyətin obyektiv və operativ məlumatlandırılması, ictimai rəyin formalaşması və dövlətçiliyin möhkəmləndirilməsi baxımından jurnalistika mühüm rol oynamaqdadır.




Milli mətbuatımızın 150 illiyində ölkəmizdə jurnalistika sahəsinin fədakarlıq zirvəsinə çevrilən Salatın Əsgərova, Alı Mustafayev, Fəxrəddin Şahbazov, Çingiz Mustafayev, Məhərrəm İbrahimov, Sirac Abışov və onlar kimi neçə-neçə qəhrəman jurnalistlərimizin əziz ruhunu böyük hörmət və minnətdarlıqla yad edirik.

Milli Mətbuat Günü münasibətilə uzun illər bu sahədə çalışan, milli mətbuat ənənələrimizin yaşadılmasına layiqli töhfə verən qocaman jurnalistlərimizi, həmçinin öz peşəsinə ciddi yanaşan, etik prinsiplərə sadiq qalan bütün media nümayəndələrini ürəkdən təbrik edirəm.

Arzu edirəm ki, jurnalistikanın yeni nəslində peşəkarlıq səviyyəsi, yüksək keyfiyyət standartları və Vətənə sədaqət daim "Əkinçi"nin maarifçi ruhu, "Molla Nəsrəddin"in cəsarətli sözü milli jurnalistikamızın fəaliyyətində hər zaman öz əksini tapacaq.

**Günay ƏFƏNDİYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2025.- 22 iyul (№ 149).- S.16.